# Vahid MƏMMƏDLİ - 60

*Yazıçı, şair, abstraksionist rəssam, 2007-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Beynəlxalq Prokurorlar Assosiasiyasının üzvü (2009), hüquq elmləri üzrə fəlsəfə doktoru, baş ədliyyə müşaviri, Prezident təqaüdçüsü (2021). Azərbaycan ədəbiyyatında ilk fentezi romanın ("Atropatena dastanı"), ilk qansız döyüş romanının ("Tunc Allahın yükü") müəllifi Vahid Məmmədli 6 yanvar 1965-ci ildə Qazax şəhərində anadan olub.*

*1986-cı ildə Rusiyanın Tver Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olunub, 1992-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirib. Tver vilayəti Maksatixa rayon prokurorunun böyük köməkçisi (1991-1992); Bakı şəhər Prokurorluğunun baş müstəntiqi (1992-2003); Bakı şəhər Prokurorluğunun istintaqa nəzarət idarəsinin böyük prokuroru (2003-2008); Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaqa Nəzarət İdarəsinin prokuroru (2008-2011); Yardımlı rayon prokuroru (2011-2021); Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi idarəsinin prokuroru (2021-2022) vəzifələrində çalışmışdır.*

*Vahid Məmmədli Rusiyada məşhur "Eksmo" nəşriyyatının müəlliflərindən biri olmaqla, bestsellerlər müəllifi kimi tanınır. Hekayə və povestləri Rusiya, Türkiyə, İngiltərə, Avstriya, Almaniya, Yunanıstan, Çexiya, Hindistan, Misir, İran və digər ölkələrdə çap olunur.*

*Azərbaycanda cinayət işləri üzrə qarşılıqlı hüquqi yardıma dair müqavilələr praktikasına həsr olunmuş ilk elmi monoqrafiyanın, beynəlxalq cinayət hüququna dair bir çox məqalənin müəllifidir.*

*Rusiya Mədəniyyət Fondunun (RMF) "Qrifon" nəşriyyatında nəşr olunan "Tunc Allahın yükü" qısa bir müddətdə bestsellerə çevrilmiş, əsərin tez bir zamanda tanınması Rusiyanın və Avropanın böyük nəşriyyatlarından olan "Eksmo" nəşriyyatının diqqətini cəlb etmiş, 2006-cı ildə onun "Tunc Mələk" əsərini "Cəllad tələsməyi sevmir" adı ilə "Rus bestselleri" seriyasında çap etmiş, 2007-ci ildə nəşriyyat tərəfindən "bestseller ustası" adına layiq görülmüşdür.*

*"Tunc mələk" romanının əsas özəlliyi qəhrəmanın müharibə gedən İraqda topların, tüfənglərin, bir çox ölkələrin xüsusi xidmət orqanlarının edə bilmədiyini həyata keçirməsi, bir azərbaycanlının öz intellektual səviyyəsi, insansevərliyi və iradəsinin gücü ilə insanları xilas etməsilə əlaqədardır. Əsər 2010-cu ildə Rusiyada "Qruppa antiterror. Spetsnaz" seriyasında da dərc edilib.*

*"Şəhrizad" və "Leyli və Məcnun" romanlarının, "Buddanın qayıdışı", "Milanda ölüm", "Tunc Mələyin yolu", "Bakı 2035" povestlərinin, onlarla hekayələrin də müəllifidir. "Milanda ölüm" əsəri İmdat Avşar və Ömər Küçükmehmetoğlunun türk dilinə tərcüməsində "Anatolia kültür" yayın evində, "Şəhrizad" romanı isə müəllifin rus dllinə tərcüməsində Rusiyanın "Eksmo" nəşriyyatında çapa hazırlanır.*

*Dünyanın böyük elektron kitab portallarından biri olan "Litres" portalının "Elektronnaya bukva 2024" - ən yaxşı elektron kitablar müsabiqəsində Vahid Məmmədlinin "Angelo di bronzo" ("Tunc mələk") romanı 27620 kitabın içindən seçilərək müsabiqənin uzun siyahısına daxil edilib.*

**Azərbaycan Yazıçılar Birliyi**